*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 501-505*

https://doi.org/10.62837/2025.3.501

**QASIMOVA SƏDAQƏT NADIR QIZI**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA FƏLSƏFİ DÜŞÜNCƏLƏR

Azərbaycan ədəbiyyatının zirvə şəxsiyyətlərindən biri olan Bəxtiyar Vahabzadə vətənpərvərlik, fəlsəfi düşüncələr, sevgi və insanlıq mövzularında dərin mənalı əsərləri ilə xalqımızın ruhuna toxunmuşdur. Şairin yaradıcılığı milli mədəniyyətin formalaşmasında və inkişafında hər zaman xüsusi rol oynamışdır. Bəxtiyar Vahabzadənin yaradıcılığı müxtəlif janrlar və mövzularla zəngindir. Onun əsərlərində milli özünüdərk, azadlıq, sevgi, fəlsəfə və insanlıq mövzuları üstünlük təşkil edir. Azərbaycan poeziyasının qüdrətli nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadə geniş fəlsəfi dünyagörüşünə, milli və bəşəri düşüncə tərzinə, kamil sənətkarlıq məziyyətlərinə görə böyük Şərq mütəfəkkiridir. Onun yaradıcılığında poetik fikrin, bədii ifadənin fəlsəfi qayəsi bəşəri mahiyyət kəsb edir, o heç vaxt poetik cizgilərin təsviri ilə kifayətlənmir. Şair yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib. Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir. Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Fəlsəfi lirika onun poeziyasının əsasını təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. B.Vahabzadənin fəlsəfi, məhəbbət və təbiət şeirlərinin məzmunu müxtəlifdir: əsl vətəndaş olduğunu sübut edən şeirlər, sevgi şeirləri, vətənə həsr olunmuş şeirlər, təəssüratlardan doğan şeirlər, lirik-fəlsəfi şeirlər, ana haqqında şeirlər, həsrət dolu şeirlər, əlvan şeirlər və s. Şairin yaradıcılığını araşdırdıqda, demək olar ki, bütün şeirlərində dərin fəlsəfi fikirlərin yatdığının şahidi oluruq. Şair "Yaxşı adam" şeirində insan problemini aktual mövzu kimi diqqətə çatdırır. İnsan kimə deyirlər? — bu, şairi düşündürür, oxucudan soruşur:

*Yaxşı adam!*
*Söylə görək*
*yaxşılığı nədir onun?*
*Xislətini sayma mənə*
*bir-bir onun!...*

Şeirin struktur təhlilini aparmış olsaq, burada insanlığa verilən tərif yaxşı adama verilən məzmunla üst-üstə düşür.

*Xeyirlə şər — yol yoldaşı,*
*Dayanıbdır ömrümüzlə yan-yanaşı.*
*Hər insanın cövhərini tanımaqçın*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 501-505*

*Nədir bizə məslək daşı?*

Yaxşı adamlığa cavab kimi şair yaddaşa həkk olunan bu misraların sonunda «məslək», «amal», «dil» metaforik-bədii ifadələrini verir. Ümumi nəticə olaraq, şeirin sonunu belə tamamlayır:

*Yaxşı adam!*
*Söylə görək*
*yaxşılığı nədir onun?*
*Söylə görək məsləki nə, eşqi nədir?*
*Qalan şeylər mənim üçün əfsanədir.*

Şeirdən göründüyü kimi, yaxşı adam olmağın atributları çoxdur. Şair onlardan az da olsa bəhs edir. Şair özü də yaxşı adam olmaq istəyir.

Zaman haqqında şairin düşüncələri müxtəlifdir. O, gah zamanın insanlar tərəfindən uydurulduğunu, gah da zamanın mücərrədliyindən bəhs edir. Burada şairin zaman düşüncəsi özü mürəkkəbləşən bir anlayışdır.

*Nədən məzarlıqda vaxt düşür yada?*
*Demə o burda da, burda da varmış!*
*Ölülər məskəni — məzarlıqda da*
*Zaman, qədəm-qədəm addımlayırmış.*

Bəxtiyarın fəlsəfi lirikası «Piyada-sərnişin» şeirində də qorunur. Şair ömürdən keçən illəri fəlsəfi dillə mənalandırır. Bu fəlsəfi lirika oxucunu düşündürəndir. Onu özünə hesabat verməyə çağırır. Şeirdə «yol» semantik məzmundan savayı, məcazi mənalarda da işlənir. Yol — mənzil başına aparır, yol zirvəyə aparır, yol — ömrün sonuna aparır.

*Sərnişin yol getdi, yoldan xəbərsiz,*
*Bilmədi bu yolda kələ-kötür var.*
*Ancaq piyadanın, xəbər-ətərsiz*
*Alnında iz açdı getdiyi yollar.*

Şair də haqq yolunun yolçusudur. Onun “Nəfs” adlı şeirində hər şeydən əvvəl nəfsə qalib gəlməyin vacibliyi təbliğ olunur. Bütün bəlaların başında nəfsin dayandığını deyən şair yalnız nəfsinə qalib gələn insanın mənəvi rahatlıq tapacağı fikrindədir.

*Hər kəsin ürəyindən Allaha bir yol gedir.*
*Bu yola biganələr özünə biganədir.*
*Özünü aşmaq üçün, haqqa ulaşmaq üçün*
*Gərək öncə aşasan nəfs adlı dağları.*

“Bu necə dünyadır?”, “O nədir?” şeirləri də dərin fəlsəfi fikirlərlə oxucunu düşünməyə məcbur edir. Şair özü də ətrafda baş verənləri təəccüblə qarşılayır. Başa düşmədiyi məqamların onu narahat etdiyi açıq-aydın hiss olunur.

*Bu necə dünyadır? Anlamıram mən,*
*Cilvəsi cürbəcür, rəngi cürbəcür.*

*Dünən nəfəsi ilə səni isidən,*
*Bu gün buza dönüb, daşa dönübdür.*

B.Vahabzadə "Gecələr" şeirində də bədii təsvir və ifadə vasitələrinin köməyi ilə gecənin fəlsəfi portretini yaradır.

*İndi mən qısılmışam gecələrin qoynuna*
*Boylanıram içimdə gah əvvələ, gah sona.*
*Gecələr-sığnaq yerim, gecələr-pənah yerim,*
*Gecələr bir-birilə döyüşən fikirlərim.*
*İnanardı ağıl da öz içimin səsinə*
*Şirin xəyallarımın yumşaq mütəkkəsinə*
*Baş qoyardım bir zaman*
*Xəyalı gerçək kimi yaşayardım bir zaman.*

Ümumiyyətlə, Vahabzadə yaradıcılığında daim hərəkət, fəaliyyət, bitməyən enerji görürük. Şairin emosianal və çılğın təbiəti onun əsərlərinə yansımadan keçə bilməzdi.

O, heç bir şeyə biganə qala bilmir. Hətta biganə insanlara nifrətlə yanaşır. Onun "Gülüstan" poemasında da nə qədər hiddətləndiyinin, etiraz dolu hayqırtısının şahidi oluruq. Şair vətənin bölünməsinə biganə qalan insanları qınayır.

*Yadlarmı edəcək bu xalqa imdad?!*
*Qoy qalxsın ayağa ruhu Tomrisin…*
*Bəs hanı bu əsrin öz Koroğlusu*
*Qılınc Koroğlusu, söz Koroğlusu?*
*Babaların şəni, şərəfi, əlbət,*
*Bizə əmanətdir, böyük əmanət.*

Öz xalqının tarixi faciəsini bədii sənət müstəvisində böyük cəsarətlə canlandıran şair, ilk dəfə olaraq ədəbiyyatımızda milli düşüncənin, milli özünüdərkin təməlini qoydu.

Bəxtiyar Vahabzadənin yaradıcılığında lirik, fəlsəfi, vətənlə bağlı şeirlərlə yanaşı həyat və yaşam mövzulu şeirləri də kifayət qədərdir. "Yaşamaq istəyirəm" adlı şeirində də şair yaltaq və biganə insanlar içərisində yaşamağın dözülməz olduğunu poetik qələmlə təsvir edir. Şair belə insanları ölü canlar adlandırır.

Düşmənə yaltaqlanıb təpəyə dağ deyənə,
"Bu dünyada birtəhər qoy yaşayaq"-deyənə.
Yaşamaq yaşamaqdır! Bəs bu "birtəhər" nədir?
Mən düşmənəm, düşmənəm belə "ölü canlar"a,
Gündən qaçıb həmişə kölgə axtaranlara...
Onlar ortada yeyib, qıraqdası gəzdilər,
Namusu xərcləməkdən, onlar çəkinməzdilər.
Onlar orta yol tutub, nə "hə", nə "yox"- dedilər,
Havaya nə "istidir", nə də "soyuq"- dedilər.

Onlar ölçüb-biçdilər hər bir şeyi dərindən,
Özgəsini hürküdüb, qorxdular özlərindən.

B.Vahabzadənin yaradıcılığına xas olan dərin fəlsəfi ovqat onu əksər çağdaşlarından uzaqlaşdırıb dahi Nizami və Füzuliyə yaxınlaşdıran xüsusiyyətdir. Bədii dildə olan adi informatik deyim tərzi əksər hallarda onun şeirlərində poetikləşir. Həyatın mənasını hərəkətdə, fəaliyyətdə görən şair, milli dilə olan bağlılığını nəinki ümumi məzmunlu şeirlərində ifadə edir, hətta dilçilik terminlərindən də bu məqsəd üçün bir obraz kimi istifadə edir:

*İsim, sifət döyüşlərdə çox zaman*
*karıxar,*
*feillərsə döyüşlərdən həmişə*
*qalib çıxar.*
*Çox sevirəm igid kimi döyüşən*
*kəlməni mən, sözü mən.*
*feil olmaq istəyirəm,*
*düzü, mən...*

Şairin feil olmaq istəyində iki məqsəd var: birincisi, doğma sözlərimiz kimi dilə olan sevgisi, ikincisi, feillərin hərəkət bildirməsi.

Görkəmli şairin “Şəbi-Hicran”, “Gülüstan”, “İstiqlal”, “Təzadlar”, “Muğam”, “Şəhidlər” poemalarındakı dərin fəlsəfi məna, şair qəlbinə sığmayan, aşıb-daşan, vətənpərvərlik hissi, vətən sevgisi oxucunu riqqətə gətirir, yaşanan tarixi hadisələrə biganə qalmağa qoymur. Oxucunu düşünməyə, keçmişdə yaşananlardan dərs çıxarmağa, düşməni yaxşı tanımağa məcbur edir.

Müasir Azərbaycan poeziyasının məşhur nümayəndələrindən olan B.Vahabzadə milyonlarla oxucunun qəlbində taxt qurmuşdur. Biz doğma vətənimizin tarixini, müxəlif dövrlərdə yaşananları onun şeirlərində, poemalarında görə bilərik: Gülüstan sülh müqaviləsi, Böyük Vətən müharibəsi illəri, 1990-cı illərdə yaşananlara həsr olunmuş şeirləri dərin fəlsəfi fikirlərlə yanaşı, həm də tarixdir. Bu əsərlər gələcək nəsillərə dəyərli mirasdır.

**Açar sözlər:** fəlsəfi fikirlər, şeir, poema, vətənpərvərlik, milli düşüncə.

## Xülasə

Bu il 100 illik yubileyi qeyd olunan görkəmli şairimiz Bəxtiyar Vahabzadənin əsərləri hər bir azərbaycanlıya tanışdır. Hər zaman xalqın halına yanan, sevincinə sevinib, kədərinə üzülən şair yaşananları ustalıqla öz şeirlərində əks etdirmişdir. Hətta sovet dövründə senzuradan qorxmayaraq, özünü və yaxınlarını təhlükəyə ataraq xalqımıza qarşı haqsızlığı “Gülüstan” poemasında qələmə almış, haqq səsi ilə dünyaya car çəkmişdir.

B.Vahabzadənin fəlsəfi, məhəbbət və təbiət şeirlərinin məzmunu müxtəlifdir: əsl vətəndaş olduğunu sübut edən şeirlər, sevgi şeirləri, vətənə həsr olunmuş şeirlər,

təəssüratlardan doğan şeirlər, lirik-fəlsəfi şeirlər, ana haqqında şeirlər, həsrət dolu şeirlər, əlvan şeirlər və s. Şairin yaradıcılığını araşdırdıqda, demək olar ki, bütün şeirlərində dərin fəlsəfi fikirlərin yatdığının şahidi oluruq.

**Резюме**

**Гасымова Садагат Надир кызы**

**ФИЛОСОФСКИЕ МЫСЛИ В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАХАБЗАДЕ**

**Ключевые слова:** философские идеи, поэзия, поэма, патриотизм, национальная мысль.

Творчество нашего выдающегося поэта Бахтияра Вагабзаде, 100-летие которого отмечается в этом году, знакомо каждому азербайджанцу. Поэт, всегда заботившийся о судьбе народа, радовавшийся его радостям и горевавший в его горестях, мастерски отразил события в своих стихах. Даже в советское время, не боясь цензуры, он подвергал себя и своих близких опасности и писал о несправедливости по отношению к нашему народу в поэме «Гюлистан», своим голосом возвещая миру правду.

Содержание философских, любовных и природных стихов Б. Вагабзаде разнообразно: стихи, доказывающие, что он истинный гражданин, любовные стихи, стихи, посвященные родине, стихи, рожденные впечатлениями, лирико-философские стихи, стихи о матери, стихи, полные тоски, красочные стихи и т. д. Рассматривая творчество поэта, мы видим глубокие философские идеи, лежащие в основе почти всех его стихотворений. В данной статье мы рассмотрели несколько стихотворений выдающегося поэта и попытались выделить философские идеи, заложенные в этих стихотворениях.

**Summary**

**Gasimova Sadagat Nadir**

**PHILOSOPHICAL THOUGHTS IN THE CREATION OF BAKHTIYAR WAHABZADE**

**Key words:** philosophical ideas, poetry, poem, patriotism, national thought.

The works of our outstanding poet Bakhtiyar Vahabzadeh, whose 100th anniversary is celebrated this year, are familiar to every Azerbaijani. The poet, who always felt sorry for the people, rejoiced in their joys and grieved in their sorrows, masterfully reflected the events in his poems. Even during the Soviet era, not afraid of censorship, he put himself and his loved ones in danger and wrote about the injustice against our people in the poem "Gulustan" and proclaimed the truth to the world with his voice.

**Rəyçi: Könül Abdullayeva (ADNSU, Humanitar fənlər kafedrası)**